Xalq qəzeti.- 2020.- 31 yanvar.- S.6.

**Akademik Fuad Əliyev – 70**

***Akademik Fuad Əliyevin 70 yaşı tamam olur. Onun bütün həyatı və elmi fəaliyyəti elmimizə, Vətənimizə və xalqımıza xidmət nümunəsidir. AMEA Gəncə Bölməsinin sədri, Əməkdar elm xadimi, akademik Fuad Əliyev zəngin və mənalı həyat yolu keçib. Gəncədə qulluqçu ailəsində doğulub, 1972-ci ildə Bakı Dövlət Universitetinin kimya fakultəsini bitirib. Bir müddət Azərbaycan Elmlər Akademiyası Aşqarlar Kimyası İnstitutunda elmi işçi işləyib. Elmi axtarışlarla zəngin olan aspirantura həyatı yaşayıb və 1981-ci ildə müvəffəqiyyətlə müdafiə edərək kimya üzrə fəlsəfə doktoru adına layiq görülüb.***

səmərəli nəticələr qazanır. O, 1992-ci ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvüdür.

180 elmi əsər, 17 elmi ixtira və 10 monoqrafiya da onun alim əməyinin məhsuludur. Görkəmli akademik gərgin elmi axtarışlar və elmi təşkilatı işlərlə yanaşı, Gəncənin içtimai-siyasi və mədəni həyatında da yaxından iştirak edir.Gəncə Ziyalılar Cəmiyyətinin sədri, YAP Gəncə şəhər təşkilatı sədrinin müavini kimi fəal içtimai iş aparır. Dəfələrlə Gəncə Şəhər Xalq Deputatları Sovetinin deputatı seçilmiş, “Ekologiya və təbii sərvətlər” daimi komissiyasının sədri olmuşdur. Fuad Əliyev bu gün də şəhər icra hakimiyyəti kabinetinin üzvü kimi fəal iş aparır. Bacarıqlı təşkilatçı, tanınmış alim və fəal içtimaiyyətçi kimi Fuad Əliyevin əməyi yüksək qiymətləndirilmişdir. O, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “Tərəqqi” medalına, 2006-cı ildə Prezidentin digər fərmanı ilə “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüş, 2017-ci ildə “3-cü dərəcəli Vətənə xidmətə görə” ordeni ilə təltif edilmiş, dəfələrlə Gəncə Şəhər İcra Hakmiyyətinin və Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Fəxri Fərmanlarını almışdır.

Fuad Əliyevi həmişə sadə insanlar arasında görmək olar. Onların əllərini səmimiyyətlə sıxır, qayğıları ilə maraqlanır, imkan daxilində öz köməyini göstərir.

Görkəmli alim, qayğıkeş ziyalı, vətənpərvər insan Fuad Usub oğlu Əliyevi anadan olmasının 70 illiyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, gərəkli işlərində daha böyük uğurlar arzulayırıq.

# Görkəmli alim, qayğıkeş insan, vətənpərvər ziyalı



Azərbaycan Milli Elmlər Akademiyası Aşqarlar Kimyası İnstitutu direktorunun elmi işlər üzrə müavini işləyən Fuad Əliyevin elmi və elmi-təşkilati fəaliyyətini Gəncədə yeni yaradılan Elm Mərkəzinin rəhbəri kimi davam etdirməsi onun həyat yolunda uğura doğru dönüş nöqtəsi olmuşdur. Gərgin elmi axtarışlarla yanaşı, elmi təşkilatçılıq işi onun üçün geniş imkanlar açmışdır. Elmi-tədqiqat mərkəzi kimi kiçik bir kollektivlə fəaliyyətə başlayan Elm Mərkəzi ötən illər ərzində Fuad müəllimin elmi-təşkilatı fəaliyyəti, əməkdaşların apardıqları səmərəli elmi axtarışlar nəticəsində bu gün nəhəng elm məbədinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, sonradan qazanılmış nailiyyətlərin təməli ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1981-ci ildə açılmış bu Elm Mərkəzində aparılan elmi-tədqiqat işlərinin bölgəni əhatə etdiyini nəzərə alaraq, elm ocağına Regional Elmi Mərkəz statusu verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2012-ci il tarixli sərəncamı ilə Gəncə Regional Elm Mərkəzinin bazası əsasında AMEA Gəncə Bölməsi və onun nəzdində yeddi elmi-tədqiqat institutu fəaliyyətə başlamışdır. Bu institutlar Qərb bölgəsinin biomüxtəlifliyinin, təbii resurslarının araşdırılmasını, pasportlaşdırılmasını və onların xalq təsərrüfatının müxtəlif sahələrində istifadəsini tədqiq edirlər.

Ekoloji tarazlığın tədqiq olunması, təbii ehtiyatların və külli miqdarda toplanmış tullantıların araşdırılması və onlar əsasında texnoloji proseslərin hazırlanması qarşıda duran ən vacib problemlərdən biridir. Həyat üçün ən vacib amillərdən biri olan torpaq və su ehtiyatları tədqiq olunaraq onlardan səmərəli istifadə olunması, bölgədəki alternativ enerji mənbələrinin araşdırılması və onun aqrar sənayedə tətbiqi reallaşdırılıb. Azərbaycan tarixinin öyrənilməsində Qərb bölgəsində arxeoloji və etnoqrafik materialların toplanması və tədqiqi, onların əsasında tədqiqatların aparılması vacibdir. Bunlar da Elm Mərkəzinin diqqətdə saxladığı ən mühüm və maraqlı sahələrdən biridir. Fuad Əliyevin rəhbərliyi ilə AMEA-nın Gəncə Bölməsində üç kimya laboratoriyası yaradılmışdır. “Təbii boyaqlar və farmakologiya”, “Biotexnologiya və təbii sərvətlər”, “Davamlı inkişaf və ekoloji monitorinq” laboratoriyaları da onun idarəetməyə yaradıcı münasibətinin nəticəsidir.

1995-ci ildə AMEA Rəyasət Heyətinin qərarı ilə Qərb bölgəsində kadr hazırlığı və elmin koordinasiyası məqsədilə “Xəbərlər” məcmuəsinin nəşrinə başlanılmışdır. Akademik Fuad Əliyev “Xəbərlər” məcmuəsinin baş redaktoru təyin olunmuşdur. 1982-ci ildə “İctimai Elmlər” bölməsi və onun nəzdində “Azərbaycan ədəbiyyatı”, “Xalq yaradıcılığı və Etnoqrafiya”, “İqtisadi araşdırmalar sektorları”, 1983-cü ildə “Avtomatik idarəetmə sistemləri” şöbəsi, 1985-ci ildə Xalqlar dostluğu muzeyi yaradılmışdır.

Gəncə tarixən qədim şeir, sənət mərkəzi kimi tanınmışdır. Azərbaycan elmini, mədəniyyəti və ədəbiyyatını bütün dünyada məşhurlaşdıran tarixi şəxsiyyətlərin təbliği bu gün də burada uğurla davam etdirilir. Gəncədə böyük alim və dahi mütəfəkkirlərin davamçıları, qədim şeir-sənət məktəbinin nümayəndələri yaşayıb-yaratmaqdadırlar. Uzun əsrlər boyu bu regionda yaşayıb-yaratmış mütəfəkkirlərin, klassiklərin, xüsusilə Nizami Gəncəvi irsinin araşdırılması nizamişünaslığın aktual problemlərinin və onun elmi-fəlsəfi görüşlərinin tədqiq edilərək dünyaya çatdırılması müasir araşdırmaçıların qarşısında duran ən vacib məsələlərindən biridir. Həmin insanların həyat və yaradıcılığının tədqiqi daim gündəmdədir. Elm Mərkəzində Gəncənin tarixinə, mədəniyyət və ədəbiyyatına, Qərb bölgəsinin təbii ehtiyatlarının və ekoloji tarazlığının tədqiqinə, qədim sənət və şifahi xalq ədəbiyyatının, o cümlədən də xalqın folklor yaradıcılığına həsr edilmiş elmi araşdırmaların və tədqiqat işlərinin nəticəsi olaraq yüzlərlə kitab və monoqrafiya nəşr edilmiş, dünyanın müxtəlif nüfuzlu elmi jurnallarında sanballı elmi məqalələr dərc olunmuşdur. Fuad Əliyev təcrübəli təşkilatçı və bacarıqlı rəhbər olmaqla yanaşı, elmi-tədqiqat işlərini də uğurla davam etdirir və

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***